# GƏZ ÜRƏYİMDƏ ..

O qanlı rapa yanvar günlərnndə istəkli oğlunu itirmiş, qələm dostum Nəsib Ələkbərov ikən oğlunun adını öz adı ilə qoşalaşdıran Nəsib Azərin dilindən

Dünyada bir çarpaz oğul dağı var.
Əbədi Yurd saldı öz ürəyimdə.
Elə düyünlədi, dağladı məni,
Düyünləndi neçə söz ürəyimdə,
Çəməndə çiçəyim, gülüm saraldı,
O qızıl qönçəmi gəldi sar aldı.
Dağımı, düzümü boran, qar aldı,
Saldı şaxtalar da iz ürəyimdə.
Təzədir, dəyməyin hələ yarama,
Çevrilib yaşılım, alım qarama.
Ey gözüm, balamı gendə arama,
Ara ürəyimdə, gəz ürəyimdə...

Əjdər Fərzəli